Azərbaycan.- 2021.- 18 aprel. S. 5.



# Yeddi qapı məbədi

Azərbaycanın Qarabağ bölgəsinin Hadrud regionu ərazisində füsunkar Yuxusən dağının ətəyində Susanlıq (Möhrənis) kəndindən piyada yolu ilə 1,2, avtomobillə 3,5 kilometr məsafədə inşa edilən abidə qeyri-adi memarlıq üslubuna malikdir. İnşa tarixi tam dəqiqləşdirilməyib, amma bir çox tarixçilərin tədqiqat əsərlərində məbədin V-VI əsrlərə aid olduğu göstərilir. Lakin bu abidənin texniki quruluşu və tikinti üslubu onu V-VI əsr abidələrindən kəskin şəkildə fərqləndirir. Bu da əsas verir deyək ki, məbədin inşa tarixi daha qədimdir.

AMEA-nın Hüquq və İnsan Haqları İnstitutunun əməkdaşı Faiq İsmayılov deyir ki, Yeddi qapı məbədi xüsusi memarlıq quruluşuna malik yeganə abidədir ki, onun oxşarına Azərbaycanın digər ərazilərində rast gəlinmir: "...Elmi ədəbiyyatda Yeddi qapı məbədi haqqında hər hansı bir məlumat yoxdur. Bir çox hallarda bu məbəd haqqında erməni yazarlarının heç bir fakta əsaslanmayan məlumatlarına rast gəlmək olur ki, bu da daha çox ermənilərin Azərbaycana qarşı əsassız ərazi iddialarına xidmət edirdi".

Məbəd haqqında yalnız bir əfsanə var. Əfsanəyə görə, məbəd torpaqlarının azadlığı uğrunda döyüşərək vəfat etmiş yeddi qardaşın tək bacısı tərəfindən onların xatirəsinə inşa edilib. Yeddi qardaşın şərəfinə tikilmiş xatirə abidəsi zaman-zaman insanların ziyarətgahına çevrilib. Bacının məzarı da məbədin həyətindədir. Bu fədakar qızın məzarı da ziyarətgah kimi tanınır.

***"Azərbaycan"***